**Anar Fazil oğlu Abbasov**

**UOT:338.1:338.123; JEL:F41;M00;L25;E21;L16.**

# Müasir şəraitdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin bəzi məsələləri

***Xülasə***

*Tədqiqatın məqsədi: - milli iqtisadiyyatın çoxşaxəlilinin təmin edilməsinin spesifik xüsusiyyətlərini tədqiq etməkdən ibarətdir. Tədqiqatın metodologiyası - tədqiqat işində müqayisəli təhlil, qruplaşdırma, ümumiləşdirmə və təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti - ölkədə çoxsaylı məhsul istehsalı son nəticədəiqtisadiyyatın və dövlət büdcəsinin beynəlxalq bazar konyunkturundan asılılığının neytrallaşdırılmasına səbəb olur. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi istiqamətində tədbirlərin gerçəkləşdirilməsi əhəmiyyətlidir. Tədqiqatın nəticələri - iqtisadiyyatın şaxələndirilməsi ölkəmiz üçün qeyri-neft sektorunun inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğundan bu sahədə tövsiyyə xarakterli təkliflər irəli sürmüşdür. Tədqiqatın orijinallığı və elmi yeniliyi –iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin zəruriliyi,şaxələndirmə prosesinə təsir edən amillər, şaxələndirmənin məqsədləri və .s müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *- milli iqtisadiyyat, iqtisadiyyatın şaxələndirilməsi, beynəlxalq bazar konyunkturu, qeyri-neft sektoru.*

## Giriş

Məlum olduğu kimi, beynəlxalq münasibətlər sistemində güclənən siyasi və iqtisadi qloballaşmanın özünəməxsus xüsusiyyətləri inkişaf səviyyəsindən asılı olaraq dünyanın müxtəlif ölkələrinin sosial-iqtisadi həyatına müxtəlif formada təsir göstərir. Dünyada siyasi qloballaşma bir qütblü dünya da dünyanın inkişaf etmiş ölkələrinin vahid siyasi gücdən və eləcə də vahid dünya hökumətindən asılılığını gücləndirsə də, iqtisadi qloballaşma ilk növbədə iqtisadiyyatın beynəlxalq bazar konyukturundan aslılığını daha da artırmaqdadır. Bu baxımdan milli iqtisadiyyatın əsasını və ixtisaslaşdırma istiqamətini əsas etibarilə xammal və ya yarımfabrikatların istehsalı təşkil edən ölkələrdə sosial iqtisadi proseslərdə bazar konyunkturu əhəmiyyətli təsir vasitəsinə çevrilir. Beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklər və tərəddüdlər mahiyyət etibarilə milli iqtisadiyyatın əsas ixrac istiqamətini təşkil edən xammal və yarımfabrikatlar istehsalı prosesinə öz təsirini göstərir və bundan əlavə, dünyanın əksər xammal istehsalçıları olan ölkələrinin dövlət büdcələrində də zəruri tərəddüdlərin yaranmasına gətirib çıxarır. Xüsusilə karbohidrogen resurslarının istehsalı üzrə ixtisaslaşmış ölkələrdə beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklər ölkənin iqtisadiyyatına çoxtərəfli təsir imkanına malik olur. Məlum həqiqətdir ki, karbohidrogen istehsalçıları olan ölkələrdə bütövlükdə iqtisadiyyat neft üzərində qurulur və dövlət büdcəsi neftdən gələn gəlirin həcmindən bilavasitə asılı olur. Neftdən gələn gəlirin həcmi isə beynəlxalq bazarda baş verən konyunktur dalğalanmalarından, eləcə də tələbatın səviyyəsindən, siyasi proseslərdən və nəhayət bu yönümdə dəyişən qiymət proseslərindən bilavasitə aslılıq güclənir. Qloballaşma şəraitində iqtisadiyyatın xammal yönümünün dəyişdirilməsi və beynəlxalq bazar konyunkturundan asılılığın neytrallaşması məqsədilə bütövlükdə milli iqtisadiyyatın modernləşdirilməsinə və o cümlədən iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsinə kəskin ehtiyac yaranır. Beləliklə, əslində müasir şəraitdə qloballaşmanın ən mühüm çağırışlarından biri iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsidir. İqtisadiyyatın çoxşaxəliliyini bir sıra iqtisadi ədəbiyyatlarda iqtisadiyyatın diversifikasiya kimi də səciyyələndirirlər. İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi



*©Anar Fazil oğlu Abbasov i.e.d., prof. Azərbaycan Kooperasiya Universiteti, "Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi". E-mail: anar1973@mail.ru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

iqtisadiyyatın modernləşməsinin mühüm tərkib hissəsi hesab edilir. Müasir şəraitdə sosial-iqtisadi proseslərin modernləşdirmədən, təsərrüfat iqtisadi həyatı yeniləşdirmədən bütövlükdə qloballaşma prosesinə uyğunlaşmaq mümkün deyildir. Nəzərə almaq lazımdır ki, bir sıra cəmiyyətlərdə modernləşdirmə proseslərinə heç də birmənalı yanaşma mövcud deyildir. Modernləşmə prosesinin tənqidçiləri hesab edirlər ki, modernləşdirmə əslində qərb mədəniyyətin inkişaf etməkdə olan ölkələrin sosial iqtisadi həyatına daxil olmasından başqa bir şey deyildir. Doğrudur, bütün bunlar sosial modernləşmənin mühüm tərkib hissəsi sayılmaqla bütövlükdə qərb mədəniyyətini ənənəvi adət və ənənələr üzərində hegemon mövqeyinin güclənməsinə və dominatlığına gətirib çıxarmasını inkar etmək mümkün deyildir.

**İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin tarixi aspektləri**

İqtisadiyyatın modernləşdirilməsinin ən mühüm tərkib hissəsindən biri olmaqla iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi prosesi ilk növbədə xammal istehsalına əsaslanan milli iqtisadiyyatlarda xüsusilə mühüm əhəmiyyətə malikdir. İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin özünə məxsus tarixi aspektləri mövcuddur. Qərb və rus iqtisadi ədəbiyyatında iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi prosesi iqtisadiyyatın diversifikasiyası da adlandırılır. Diversifikasiya sözü latın mənşəli olub iki sözün birləşməsindən ibarətdir. bu diversus və facere sözlərinin birləşməsindən yaranır. Diversus sözü müxtəliflik, facere sözü isə həyata keçirmək deməkdir. Beləliklə, diverfikasiya ilk növbədə istehsal edilən məhsulların və göstərilən xidmətlərin iqtisadi mühitinin genişləndirilməsinə, yeni məhsulların yaradılmasına və onların bazara çıxarılmasına, ilk növbədə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsini və bütövlükdə müxtəlif məhsulların istehsalı hesabına, yəni məhsul çeşidlərinin artırılması hesabına zərərlərin qarşısının alınmasını, milli iqtisadiyyatın müflisləşmədən uzaq tutulmasını nəzərdə tutur.

Çoxşaxəli iqtisadiyyatın formalaşdırılması ideyası əslində uzun əsirli bir tarixi prosesi özündə əks etdirmir. İqtisadiyyatın şaxələndirilməsi ideyasının tarixi kökləri təxminən 60 il bundan əvvələ təsadüf edir. Belə ki, ötən əsrin 50-ci illərin sonlarından etibarən demək olar ki, ənənəvi iqtisadiyyat və eləcə də ənənəvi təsərrüfat fəaliyyətinə əsaslanan məhsul istehsalı və xidmətlərinin göstərilməsi prosesi iqtisadi cəhətdən o qədər də cəlbedici görünmürdü və bütün bunlar isə son nəticədə ənənəni iqtisadiyyatın süquta uğramasını şərtləndirirdi. Odur ki, iqtisadiyyatın ənənəvi sahələrinə və o cümlədən ənənəvi təsərrüfat fəaliyyətinin üstünlük təşkil etdiyi fəaliyyət sahələrinə kapital qoyuluşlarını həyata keçirmək o qədər də səmərəli xarakter daşımırdı. Bütün bunlar isə son nəticədə kapital qoyuluşu risklərinin artmasına gətirib çıxarmaqla bütövlükdə mövcud iqtisadiyyatda investisiya böhranının sürətlənməsinə səbəb olurdu. Odur ki, ötən əsrin 60-ci illərinin ortalarından etibarən iqtisadiyyata yatırılan kapital qoyuluşlarının risklərini aşağı salmaq məqsədi ilə istehsal edilən məhsulların çeşidinin genişləndirilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi obyektiv zərurətə çevirməyə başladı. Bu həm də ənənəvi bazarların demək olar ki, ənənəvi məhsullarla doldurulması ilə bağlı olmuşdur. Odur ki, kapital qoyuluşlarının daha çox iqtisadiyyatın alternativ sahələrinə qoyulması və eləcə də alternativ məhsul istehsalı prosesinin həyata keçirilməsi və alternativ ixracın təmin edilməsi əslində kapital qoyuluşlarının genişlənməsinə, həm risklərin aşağı salmasına və həm də iqtisadiyyatın yeni sahələrinin dövriyyəyə buraxılmasına cəlbedici təsir göstərirdi.

Ötən əsrin 50 illərinin əvvəllərindən etibarən əslində istehsalın iqtisadi səmərəliliyinin formalaşdırılmasının daxili artım mənbələrində demək olar ki, tükənmə halları müşahidə edilmişdir. Odur ki, iqtisadiyyatın ənənəvi sahələri və eləcə də ənənəvi məhsul istehsalının genişləndirilməsinə yönəldilmiş kapital qoyuluşlarının gəlir vermə imkanları daha çox azalmaqda davam edirdi. Əslində kapitalın gəlirlik payının azalması səbəbindən ilk növbədə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

iqtisadiyyatın genişləndirilməsini, iqtisadiyyatda müxtəlifliyin formalaşdırılmasına yönəldilmiş cəhdləri özündə ehtiva edirdi. Xüsusilə müasir qloballaşma şəraitində iqtisadiyyatın çoxşaxəliliyinin təmini bütövlükdə kapitalın təmərküzləşməsinin ən geniş yayılmış formasına çevrilməsinə baxmayaraq demək olar ki, diversifikasiya prosesi əslində hazırkı dövrə qədər demək olar ki, kifayət qədər mürəkkəb və tarixən uzunmüddətli sayıla biləcək bir dövrü özündə birləşdirmişdir. Ənənəvi təsərrüfat fəaliyyətindən yayınma prosesləri o qədər də sadə proseslər deyildir. İqtisadiyyatın şaxələndirilməsi prosesi həm daxili və həm də xarici amillərin təsiri altında baş vermişdir. Onu da qeyd etmək yerinə düşər ki, əslində istər daxili və istərsə də xarici amillər iqtisadiyyatın şaxələndirilməsi prosesinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir. Belə ki, bazar konyunkturunda baş verən dəyişikliklərin və eləcə də iqtisadiyyatda uzun illər kök salmış strukturlaşma prosesinin çoxşaxəliliyinin təmin edilməsinə nəzərə çarpacaq dərəcədə fərqli təsirləri mövcud olmuşdur. Ötən əsrin 60-cı illərindən etibarən hal-hazırki dövrə qədər iqtisadiyyatın çoxşaxaliliyinin təmin edilməsinə istiqamətlənmiş proses demək olar ki, təkamül əsasında inkişaf etmişdir. Maldova iqtisadçıları E.Broxkina və M.Tolfik istehsalat və bütövlükdə iqtisadiyyatın çoxşaxəliliyini uzunmüddətli tarixi proseslərin və eləcə də iqtisadi təkamül proseslərinin məcmusu hesab etməklə yanaşı, bu prosesləri aşağıdakı kimi təsnifləşdirmişlər. Adı çəkilən müəlliflərin fikrincə birinci mərhələdə əslində bu və ya digər əmtəə kütləsinin seçilməsi, ikinci mərhələdə bu və ya digər sahə komplekslərinin seçilməsi, üçüncü mərhələdə bol məhsul və xidmətlərin istehsal ediləcəyi fəaliyyət sferalarının seçilməsi və nəhayət dördüncü mərhələdə ölkələrin və o cümlədən satış bazarlarını təşkil edəcək ölkələrin seçilməsi prosesləri formalaşdırılır. İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi ilə bağlı keçirilən hər bir mərhələ iqtisadi müxtəlifliyin təmin edilməsinin mühüm tərkib hissəsi hesab edilir və əsas etibarilə sahibkarlığın inkişafındakı pirioritetlərin dəyişməsi ilə bir-birindən fərqlənir [1]. Belə ki, əslində iqtisadiyatın çoxşaxəliliyinin təmin edilməsi prosesinin əmtəələrin və fəaliyyət sahələrinin şaxələndirilməsi proseslərindən başlandığını iddia etsək heç də səhv etmərik. İntensiv inkişaf əslində modernləşmə prosesinin mühüm tərkib hissəsidir və bazar iqtisadiyyatının artım dinamikası ilə, eləcə də tələbin səviyyəsindəki baş verən dəyişiklərlə əlaqədar olaraq yeni məhsulların yaradılmasına və yeni məhsulların istehlakına meyl yüksəlir. Təbii ki, bu meylin yüksəlməsini şərtləndirən ən mühüm səbəblərdən biri yeni yaradılan məhsulun keyfiyyətinin yüksəldilməsi və onun texniki-istismar qabiliyyətinin artırılması ilə sıx bağlıdır. Təbiidir ki, bazardakı yeni məhsul ənənəvi məhsuldan fərqli olaraq məhz keyfiyyət parametrləri və istismar qabiliyyətinin yüksək olması və eləcə də qiymətlərin səviyyəsinin əlyetərli olması ilə rəqabət qabiliyyəti qazana bilərdi. İstehsalın şaxələndirilməsi prosesi demək olar ki, bazar nöqteyi nəzərindən yanaşdıqda heç də birmənalı şəkildə artan dinamika ilə inkişaf etməmişdir. Bu prosesə eyni zamanda istehlakçıların alıcılıq qabiliyyəti, eləcə də istehlakçıların psixoloji davranışları və gözləmələri də əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

İstehsalat şaxələndirilməsi prosesinin tarixi aspektlərinin səciyyələndirən ən mühüm cəhətlər əslində onun müasir reallıqları ilə kifayət qədər düz mütənasiblik təşkil edir. Belə ki, istehsalın şaxələndirilməsi prosesinin ilkin tarixi dövrlərində, daha doğrusu ötən əsrin 60-70-ci illərində müxtəlif bazarlarda satışların həcmi eyni dərəcədə olmamışdır. Belə ki, bir bazarda satışının azalması digər bazarda satışın artması hesabına gəlirlərin kompensasiya edilməsinə imkan vermişdir. Bütün bunlar isə əslində istehsalın şaxələndirilməsi prosesinin iqtisadi dividentlərinin əldə edilməsini şərtləndirir və bazar konyunkturunda baş verən tərəddüdlərdən asılılığın aradan qaldırılmasına səbəb olur və istehsalın şaxələndirilməsi prosesi məhz konyunkturdan aslılığın aşağı salınmasına yönəlməklə, eyni zamanda gəlirlərin səviyyəsinin artırılmasına və sabitliyin təmin edilməsində əhəmiyyətli rola malikdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İstehsalın, bütövlükdə iqtisadi inkişafın çoxşaxəliliyinin təmin edilməsi bütövlükdə istehsalın ixtisaslaşdırılması prosesindən də əhəmiyyətli dərəcədə aslı olmuşdur.

İstehsalın və iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi ilə istehsalın ixtisaslaşması prosesi arasındakı əlaqə çoxşaxəliliyə start verilməsinin ilkin dövrlərində tərs mütənasiblik təşkil etsə də, hazırda bu proseslərdə kifayət qədər birbaşa aslılıq, yəni düz mütənasiblik müşahidə edilir. Belə ki, istehsalın və iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirildiyi iki dövrlərdə, yəni ötən əsrin 60-70-ci illərində yüksək ixtisaslaşmış müəssisələrə nisbətən çoxşaxəliliyin formalaşdırdığı sahələrdə iqtisadi münasibətlər və eləcə də bazar prosesləri və bazarda reallaşdırılan məhsulun həcmi davamlı olaraq artmağa meyl olmuş və bu da bütövlükdə məhsulun rəqabət qabiliyyətinin yüksəlməsi ilə sıx bağlı olmuşdur. Ənənəvi məhsulların reallaşdırılması ilə müqayisədə yeni fəaliyyət sahələrinin bazara daxil olması prosesləri bir sıra hallarda daha çox bazara nüfuz edir və istehsal edilən məhsulun çeşidinin genişləndirilməsi bu sahədə başlıca stimul rolunu oynayır. E.Broxkina və M.Tolfik apardığı tədqiqatlar nəticəsində belə qənaətə gəlmişdir ki, ötən əsrin 50-70-ci illərində ABŞ-da yalnız bir məhsulu istehsal edən şirkətlərin sayı 500-ə qədər olmuşdursa, sonrakı illərdə, yəni 80-ci illərin əvvəllərində həmin müəssisələrin sayı 8%-ə qədər aşağı düşmüşdür. İstehsalın çoxşaxəliliyinin təmin edilməsi mübadilə və satış sferasına da əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Hazırki şəraitdə iqtisadiyyatın çoxşaxəliliyin təmin edilməsi prosesi kifayət qədər optimal xarakter almış və elmi cəhətdən əsaslandırılmış şəkildə həyata keçirilməkdədir. Çoxşaxəliliyin formalaşdırılmasının ilkin dövrlərdə bu proses kifayət qədər xaotik və demək olar ki, kortəbii şəkildə həyata keçirilmişdir.

Diverfikasiya prosesi özünəməxsus sosial-iqtisadi xüsusiyyətlərə malik olmaqla yanaşı, hər bir ölkədə mövcud iqtisadi münasibətlər sistemindən, eləcədə əhalinin etnik-milli xüsusiyyətlərindən, bazarın səciyyəvi xarakterindən əhəmiyyətli dərəcədə asılı olmuşdur. Məhz istehsalın və iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin, hər bir ölkənin sosial-iqtisadi xüsusiyyətlərindən əhəmiyyətli dərəcədə asılı olması son nəticədə çoxşaxələnmə prosesinin müvəffəqiyyətinədə təsirsiz ötüşməmişdir. Azad bazar münasibətlərinin hakim mövqe tutduğu, eləcə də azad rəqabətin mövcud olduğu və iqtisadiyyatın az inhisarlaşdığı sahələrdə çox şaxəliliyin təmin edilməsi kifayət qədər uğurlu şəkildə davam etməkdədir. İ.Ansoffun fikrincə əslində iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsinə ikinci dünya müharibəsindən sonrakı dövrdə başlanmışdır. Daha doğrusu, iqtisadiyyatın çoxşaxələndirilməsi ideyasının yaranmasını ikinci dünya müharibəsindən sonra dünya iqtisadiyyatında baş verən dağıntılar və bütövlükdə iqtisadiyyatın əhəmiyyətli dərəcədə sükutu birbaşa təsir göstərmişdir [2]. Diversifikasiya probleminə dünya ədəbiyyatında çoxsaylı elmi əsərlər həsr edilmişdir. İqtisadiyyatın çoxşaxəliliyi anlayışı ilk dəfə elmə ədəbiyyata Kennet Endryus gətirmişdir. Kennet Endryusun fikirincə diverfikasiya və başqa sözlər iqtisadiyyatın çoxşaxəliliyi dedikdə müəssisə tərəfindən istehsal edilən əmtəələrin həcminin genişləndirilməsi, eləcə də onların çoxsaylı çeşidlərinin bazara çıxarılması nəticəsində müəssisələrin daha çox gəlir əldə etmək imkanlarının təmin edilməsi başa düşülür [3].

Amerikan iqtisadçısı M.Worton isə iqtisadiyyatın çoxşaxəliliyinin formalaşdırılması anlayışını kifayət qədər fərqli yanaşması mövcuddur. Belə ki, M.Worton fikrincə əslində çoxşaxəliyinin təmin edilməsi dedikdə bir müəssisə vəya şirkətin bir neçə bazara eyni vaxtda xidmət etməsi başa düşülür [4]. Çoxşaxəli iqtisadiyyatın formalaşdırılması əslində bir deyil bir neçə mənbədən gəlir əldə edilməsinə xidmət edir. Bu ilk növbədə bazar konyunkturundan aslılığının aradan qaldırılmasına və sahibkara, bütövlükdə dövlət büdcəsinə gəlir axının müxtəlif mənbələrdən formalaşmasının şərtləndirir. Çoxşaxəlilik mahiyyət etibarilə bir-biri ilə əlaqədə olmayan və bir-birindən asılı olmayan müxtəlif fəaliyyət növlərinin eyni zamanda



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

inkişaf etdirilməsini nəzərdə tutur. Çoxşaxəlilik dedikdə istehsal, satış və biznes fəaliyyətinin müxtəlif mənbələrdən gəlir əldə edilməsinə xidmət etməklə həyata keçirilməsini özündə əks etdirir. Çoxşaxəlilik məhsul vəxidmətlərin keyfiyyətinin yüksəldilməsi əsasında istehsal edilən məhsulun, göstərilən xidmətin rəqabətədavamlılığının artırılması nəticəsində formalaşır. Təsərrüfat fəaliyyətinin və bütövlükdə iqtisadiyyatın şaxələndirilməsi bir sahədən digər sahəyə kapitalın keçidini stimullaşdırır, bu zaman risklərin aşağı salınması baxımından kapitalın müxtəlif sahələrdə bölgüsü həyata keçirilir.

Bazar rəqabəti kapitalın hərəkətini şərtləndirən ən mühüm stimullaşdırıcı vasitələrdən biri hesab olunur. İqtisadiyyatın çoxşaxəliliyi xüsusilə bir məhsuldan asılı olan iqtisadiyyat üçün önəmli vasitələrdən biri hesab olunur. İqtisadiyyatın yalnız bir məhsulun istehsalı üzrə ixtisaslaşması prosesi gəlir əldə etmə imkanları baxımından risklərlə zəngindir. Belə bir şəraitdə bu isə istər sahibkarın və istərsə də dövlət büdcəsinin imkanları konyunktur tərəddüdlərindən asılı olur və sahibkarın, eləcə də makro səviyyədə iqtisadiyyatın gəlirliliyinin azalmasını şərtləndirir. İqtisadiyyatın şaxələndirilməsi prosesi əslində məqsəd deyil, bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, qloballaşma şəraitində ölkənin strateji maraqlarının qorunmasında vasitə rolunu oynayır. Bu baxımdan beynəlxalq münasibətlər sistemində qloballaşma prosesinin dərinləşməsi, iqtisadiyyatın şaxələndirilməsi prosesi obyektiv zərurətə çevirmişdir. Müasir şəraitdə xüsusilə xammal ixracından asılı olan ölkələrdə iqtisadiyyatın şaxələndirilməsi və istehsal prosesinin çoxşaxəliliyinin təmin edilməsi ən aktual vəzifələrdən biri hesab edilir və iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından obyekt zərurət kəsb edir.

İnkişaf etməkdə olan ölkələri dünyanın təsərrüfatının 4/5 hissəsini əhatə edir, orada Yer kürəsi əhalisinin 85%-i yaşayır, lakin ÜDM-in həcminin cari valyuta məzənnələri əsasında hesablanmış 28,7%-i və alıcılıq qabiliyyəti paritetləri üzrə qiymətləndirilən 46%-i onların payına düşür. Periferiya ölkələrinin iqtisadi vəziyyəti, onların problemləri bəşəriyyətin əksər hissəsinə birbaşa təsir göstərir. Bu altsistemə Tayvan, Sinqapur və İsrail istisna olunmaqla bütün Asiya ölkələri, Afrikanın, Latın Amerikasının, Şərqi və Cənubi-Şərqi Avropa dövlətləri daxildir. Onlar simalarının həddən açıq rəngarəngliyi, sosial və iqtisadi inkişaf şəraitinin və səviyyələrinin müxtəlifliyi ilə səciyyələnirlər. Bununla bərabər, həmin ölkələri ayrıca dövlətlər qrupunda birləşdirən bir çox əlamətlər mövcuddur. Bir sıra ölkələrdə sosial və iqtisadi inkişafda əldə edilmiş nailiyyətlərə baxmayaraq, ümumilikdə bu qrup böyük iqtisadi və sosial problemlərin mövcudluğu ilə xarakterizə olunur. Hər il təqribən 30 milyon 5 yaşınadək uşaq inkişaf ölkələrdə faciəli sayılmayan səbəblərdən tələf olur. Əhalinin təqribən yarısı müasir sanitar tələblərə cavab verməyən şəraitdə yaşayır. 120 milyona yaxın uşaq, müvafiq yaş qrupunun 20%-i ibtidai təhsil almır. İnkişafın zəifliyi və gerilik inkişaf etməkdə olan ölkələrin xüsusi altsistemə ayrılmasının ən vacib meyarlarından biridir. İnkişafın zəifliyi cəmiyyətin tərkibinin keyfiyyətcə müxtəlif olmasında, müasir və ənənəvi tipli iqtisadi və qeyri-iqtisadi qurumlardan, habelə aralıq keçid təsisatlarından ibarət olan sistemin nizamsızlığında əks olunur. Asılı inkişaf xarici iqtisadi münasibətlərdə özünü büruzə venr İqtisadiyyatın geridə qalmış strukturu, məhsuldar qüvvələrin aşağ: səviyyəsi, onların ixtisaslaşması inkişaf etməkdə olan ölkələrin sənaye dövlətlərinə doğru istiqamətlənməsini labüdləşdirir. Onların xana iqtisadi əlaqələri əsasən periferiya ölkələri - inkişaf etmiş ölkələr xətti üzrə inkişaf edir. Əmək məhsuldarlığının aşağı səviyyəsi inkişaf etməkdə olan ölkələrin fərdi məsrəflərinin beynəlxalq ictimai-zəruri xərclərə uyğun olmaması ilə nəticələnir. Nəticədə son onilliklərdə asılılıq iqtisadi forma almış dominantlıq və tabeçilik münasibətləri kimi təzahür edir. Bu, sənaye və inkişaf etməkdə olan ölkələr arasındakı əlaqələrin bir çox növlərini əhatə edir, siyasətə, ideologiyaya, mədəniyyətə təsir göstərir. Amma bu, dünya periferiyası ölkələrində inkişaf proseslərinin kapitalizm mərkəzləri tərəfindən idarə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olunduğunu ifadə etmir. Hər bir konkret dövlətin asılılıq dərəcəsi dəyişərək, zəifləyə, yaxud güclənə bilər. Buna dünya təsərrüfatının vəziyyəti, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatın inkişafının "filial", yaxud milli xarakterini müəyyənləşdirən iqtisadi və sosial siyasəti təsir göstərir (5). İnkişaf etməkdə olan ölkələr üçün iqtisadiyyatın diversifikasiyası daha çox strateji əhəmiyyətə malikdir. Çünki inkişaf etməkdə olan ölkələrdə ixracın strukturunda neft və kənd təsərrüfatı məhsullarının dominantlığı daha çox müşahidə edilir. Bundan əlavə inkişaf etməkdə olan ölkələrdə neft məhsullarının ixracı qlobal bazarlarda baş verən konyunktur dəyişikliklərinə daha çox məruz qalır və bu da dövlət büdcəsinə valyuta daxil olmalarının həcmində əhəliyyatlı tərəddüdlər doğurur. Məhz bu prizmadan yanaşdıqda inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında iri həcmli gəlir fərqlərinin yaranması qaçılmaz xarakter daşıyır. Bu prosesi doğuran ən mühüm səbəblərdən biri də inkişaf etmiş ölkələrin iqtisadiyyatının yüksək səviyyədə modernləşməsi və eyni zamanda inkişaf etmiş ölkələrin dünya ixracının strukturunda daha çox sənaye və kapital tutumlu məhsullar istehsal etməsidir. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı da yüksək modern xarakter daşıyır. Bütün bunların nəticəsidir ki, ABŞ, Fransa, Kanada dünya ərzaq bazarlarına yüksək keyfiyyətli kənd təsərrüfatı, ərzaq və yeyinti məhsulları ixrac edirlər. İnkişaf etmiş ölkələrin, o cümlədən ABŞ, İngiltərə, Yaponiya və Fransanın təcrübəsi göstərir ki, həmin ölkələrin xarici bazarlara çıxardığı məhsullar və eyni zamanda həmin ölkələrdə fəaliyyət göstərən iri transmilli şirkətlər bilavasitə bütövlükdə dünya iqtisadi siyasətinin prioritetlərini müəyyənləşdirən qurumlar kimi fəaliyyət göstərirlər. Məhz həmin ölkələrdə ixrac potensialının zəngin olması, iri transmilli şirkətlərin fəaliyyət göstərməsi bütövlükdə həmin ölkələrin dünya nəhəngi kimi çıxış etməsinə əhəmiyyətli dərəcədə şərait yaratmışdır [6].

İnkişaf etməkdə olan ölkələrdə qloballaşma prosesinin doğurduğu neqativ təzahürlərin aradan qaldırılması məhz iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi ilə neytrallaşdırıla bilər. Xüsusilə xammal istehsal edən ölkələrdə iqtisadiyyat beynəlxalq bazar konyunkturundan asılı vəziyyətə düşür. İnkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın ixtisaslaşma istiqamətini əsas etibarı ilə xammal istehsalı və onların dünya bazarına çıxarılması təşkil edir, belə bir şəraitdə isə inkişaf etmiş dünya gücləri beynəlxalq konyunkturda bu və ya digər siyasi və iqtisadi tərəddüdlər yaradaraq bazar qiymətinin aşağı düşməsinə istiqamətlənmiş tədbirlər gerçəkləşdirirlər. Bu isə inkişaf etməkdə olan ölkələrdə dövlət büdcəsinin gəlirlərinin bu və ya digər zaman kəsiyində aşağı düşməsinə gətirib çıxarır, istehsalın, iqtisadi infrastrukturun inkişafına istiqamətlənən layihələrin gerçəkləşməməsinə və həmin lahiyələrin risklərə məruz qalmasına səbəb olur.

**İqtisadiyyatın şaxələndirilməsinin zəruriliyi**

İnkişaf etməkdə olan ölkələrdə istehsal və iqtisadiyyatın şaxələndirilməsi prosesinin obyektiv zəruriliyi həm də onunla bağlıdır ki, inkişaf etmiş ölkələr dünya bazarına daha çox kapital tutumlu və elm tutumlu məhsullar çıxardığından və bu zaman tədiyyə balansında inkişaf etməkdə olan ölkələr üçün kəsirli situasiya formalaşır. İstehsalın və iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi prosesinin obyektiv zəruriliyini aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- ✓ istehsalın və iqtisadiyyatının təmin edilməsinin makroiqtisadi aspektdən zəruriliyini şərtləndirən amillərə ilk növbədə uzun zaman kəsiyində iqtisadi artımın təmin edilməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsini şamil etmək olar. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə neftdən asılı olmayan sahələrin inkişaf etdirilməsinə vəsaitin ayrılması istər daxili və istərsə də xarici bazarlarda ölkənin mövqelərinin güclənməsinə gətirib çıxarır. İstehsalın çoxşaxəliliyinin təmin edilməsi zamanı istər yüngül, istər yeyinti və istərsə də aqrar sənaye məhsullarının istehsalının artırılmasına istiqamətlənmiş



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tədbirlər gerçəkləşdirir ki, bu da daxili bazarda idxal kanallarının rolunu məhdudlaşdırır və idxalı əvəzetmə siyasətinin gerçəkləşdirilməsinə əlverişli şərait yaradır:

- ✓ istehsalın və iqtisadiyyatın şaxələndirilməsi prosesi ilk növbədə ölkədən valyuta çıxarılması prosesinin qarşısını alır və valyutanın ölkə daxilində qalmasına gətirib çıxarır. İstehsalın çoxşaxəliliyinin təmin edilməsində rəqabətqabiliyyətinin artırılmasına nail olduqda isə ölkənin bu və digər şirkətləri dünya bazarında öz mövqelərinin möhkəmləndirir, bu da xarici bazarlara məhsul ixracının artırılmasına gətirib çıxarmaqla ölkə büdcəsinə daha çox vəsait yönəldilməsini təmin edir:
- ✓ istehsalın və iqtisadiyyatın şaxələndirilməsi prosesi əhali məşğulluğunun təmin edilməsi ilə bağlıdır. Xüsusilə neftdən asılı iqtisadiyyatın formalaşması zamanı ölkədə məşğulluğun təmin edilməsi əsas etibarilə neft və neftlə bağlı müəssisələrinin istehsal gücünün artırılmasından əhəmiyyətli dərəcədə aslı olur və bu da bazar konyunkturu ilə sıx bağlıdır. İstehsalın və iqtisadiyyatın çoxşaxəliliyinin təmin edildiyi şəraitdə isə iqtisadiyyatda çoxsaylı müəssisələr yaradılır və həmin müəssisələr istər daxili və istərsə də xarici bazara yönəlik məhsul istehsalı həyata keçirir. Beləliklə, müəssisələrin sayının artırılması zamanı ölkədə səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş tədbirlər gərçəkləşdirilir. Bu da işsizliyin səviyyəsinin aşağı salınmasında əhəmiyyətli rol oynayır;
- ✓ istehsalın və iqtisadiyyatın şaxələndirilməsi əhalinin gəlirlərinin artırılması ilə bağlıdır və nəzərə almaq lazımdır ki, işsizliyin səviyyəsinin aşağı salındığı və iqtisadiyyatda səmərəli məşğulluğunun təmin edildiyi şəraitdə müəssisələrin davamlı fəaliyyəti nəticəsində işçilərin gəlirlərinin artırılmasına nail olmaq mümkündür. Bu həm əhalinin gəlirlərinin artırılması, eyni zamanda onların alıcılıq qabiliyyətinin güclənməsi deməkdir;
- ✓ istehsalın və iqtisadiyyatın şaxələndirilməsi prosesi eyni zamanda iqtisadi fəallığın artırılmasında əhəmiyyətli vasitələrdən biri hesab olunur. İqtisadi fəallığın artırılması prosesi ilk növbədə iqtisadiyyatda canlanma səviyyəsinin yüksəldilməsini özündə əks etdirir ki, bu da həm işsizliyin səviyyəsinin aşağı salınmasında və həm də dövlət büdcəsinin gəlirlərinin mütəmadi olaraq artırılmasında əhəmiyyətli vasitələrdən biri hesab olunur. Məlum olduğu kimi, iqtisadi fəallıq ilk növbədə əhali məşğulluğunun təmin edilməsində və inflyasiya səviyyəsinin aşağı salınmasında mühüm vasitələrdən biri hesab olunur;
- ✓ istehsalın və iqtisadiyyatın şaxələndirilməsi prosesi dövlət büdcəsinə daxilolmaların artırılmasını və eyni zamanda dövlət büdcəsinə alternativ mənbələrdən vəsait axınını stimullaşdırır;
- ✓ dövlət büdcəsinə daxil olmalarının əhəmiyyətli hissəsini neft və karbohidrogen resurslarının xarici bazarlarda reallaşdırılmasından əldə edilən vəsait təşkil etdiyi halda bu proses büdcənin gəlirlərinin bütövlükdə xarici və bazar konyunkturundan asılılığına gətirib çıxarır. İqtisadiyyatın çoxşaxəliliyinin təmin edildiyi şəraitdə isə müxtəlif məhsulların daxili və xarici bazarlarda reallaşdırılması prosesi baş verir ki, bu da dövlət büdcəsinə gəlir daxilolmalarının müxtəlifliyini təmin edir. Daha doğrusu, bu və digər bazarlarda konyunktur dalğalanmaları ölkə iqtisadiyyatı üçün səmərəli xarakter daşımadığı halda digər bazarların mövcud durumu və eləcə də iqtisadi canlanma nəticə etibarilə ölkəyə vəsait axınını gerçəkləşdirir və bu da dövlət büdcəsinin gəlirlərinin artırılmasında mühüm rol oynayır;
- ✓ çoxşaxəliliyini təmin edilməsinin obyektiv zəruriliyinin təmin edən amillərdən biri də iqtisadiyyatın, bütövlükdə sənayenin, kənd təsərrüfatının modernləşdirilməsinə nail olmaqdan ibarətdir. Aparılan tədqiqatlar göstərir ki, istər inkişaf etməkdə olan ölkələrdə, istərsə də postsovet respublikalarında sənayenin texniki və texnoloji bazasının dərin texnologiya geriliyi və köhnəlməsi mövcud istehsal ehtiyatlarından səmərəli istifadəni



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mümkünsüz edir. Təkcə bir faktı qeyd etmək olar ki, keçmiş postsovet respublikalarının əksəriyyətində sənayenin əsas fondların köhnəlməsi 70% istehsal vasitələrinin 93%-i isə köhnəlmiş texnologiyalardan istifadə edirlər.

**İqtisadiyyatın çoxşahəliliyinin təmin edilməsinin məqsədləri**

Dünya təcrübəsi göstərir ki, iqtisadi şaxələndirmə əslində iqtisadiyyatın ixtisaslaşması prosesinin dar müstəvidə deyil daha geniş aspektdə reallaşdırılması nəzərdə tutur. İqtisadi şaxələndirmənin həyata keçirildiyi şəraitdə bütövlükdə istehsal və ticarət sektorunda təmərküzləşmə prosesinin əksinə olan proseslər həyata keçirilir və bütün bunlar iqtisadi inkişafın əsas elementinə çevrilir. Xüsusilə iqtisadi şaxələndirmənin mövcud olmadığı şəraitdə xarici təsirlərin milli iqtisadiyyatda rolu kifayət qədər həssaslıqla qarşılana bilir. Bu həssaslıq isə iqtisadi tarazlığın pozulmasına gətirib çıxarır. İqtisadiyyatın strukturunda yanacaq yağları, eləcə də digər material ehtiyatları üstünlük təşkil etdiyi, iqtisadiyyatın ixtisaslaşma istiqamətini əkinçilik və karbohidrogen ehtiyatlarının istehsalı təşkil edən ölkələrdə iqtisadi strukturlar kifayət qədər zəif olub və xarici rəqabətə dözümlülük nümayiş etdirə bilmir. Bazarlarda iqtisadi fəallığın ləngiməsi və eləcə də kənd təsərrüfatında iqlim dəyişiklikləri, eyni zamanda karbohidrogen resursları bazarında qiymət şokları iqtisadi şaxələndirmənin olmadığı şəraitdə makroiqtisadi baxımdan problemlər vəd edir.

İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi o halda müsbət effektlər verə bilər ki, şaxələndirmə nəticəsində yaranan sahələr rəqabətqabiliyyətinə malik olsun və dünya bazarında alternativləri ilə müqayisədə daha sürətli şəkildə reallaşdırıla bilsin. Hazırda elm və texnikanın inkişafı ilə əlaqədar olaraq texnoloji inkişaf ölkənin xarici bazarlarda rəqabət qabiliyyətliyini artıraraq ixrac potensialının genişləndirilməsində əsas rol oynayır.Texnoloji yenilik ayrı-ayrı ölkələrdə istehsal prosesləri arasında fərqlərin yaranmasına gətirib çıxarır və bu yeniliyə görə həmin ölkə müqayisəli üstünlüyə malik olur. Bu zaman yeni texnologiya digər ölkələrə yayılana qədər yenilikçi ölkə müvəqqəti də olsa, bu malın ixracında inhisarçı olur və bununla da özünün ixrac potensialının maksimum səviyyədə inkişafını təmin etmək imkanı əldə edir. Məlum olduğu kimi, tarixən zəif inkişaf etmiş ölkələrdə xammal ixracı üstünlük təşkil etmişdir. Lakin inkişaf etmiş ölkələrdə xammala olan tələbatın aşağı səviyyədə olması, onların yeritdiyi proteksionizm siyasəti, xammala qənaət edən texnologiyaların tətbiqi və sintetik əvəzedicilərdən istifadə edilməsi və s. səbəblərdən asılı olaraq, ölkənin xammal hesabına ixrac potensialını genişləndirmək imkanları məhduddur. Xüsusilə də, son dövrlərdə müqayisəli üstünlüklərin tədricən texnologiya tutumlu istehsala doğru dəyişdiyini nəzərə alaraq ixracın əmtəə tərkibində emaledici sahənin, əsasən də elm və kapital tutumlu məhsulların payının artırılması daha məqsədəuyğun və perspektivli hesab olunur (6). İqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi eyni zamanda yerli məhsulların dünya bazarında mövqeyinin yaxşılaşdırılmasına istiqamləndirilmiş tədbirlərin gerçəkləşdirilməsi ilə müşayət olunmalıdır. Professor A.E.Quliyevanın fikrincə respublikamızın dünya bazannda mövqeyinin yaxşılaşdırılması yolunda atılmalı ən birinci addım iqtisadi artımın ixracyönlü modelə əsaslandırılmasıdır. Bu sahədə dünya təcrübəsinə əsaslanan effektiv dövlət proqramının yaradılması zamanın tələbinə çevrilmişdir. Fikrimizcə, ixracın stimullaşdınlması üçün aşağıda göstərilən təkliflər həmin proqramın bəzi elementləri rolunu oynaya bilər: yalnız emal sənayesinə aid ixracların fəaliyyətinin stimullaşdmlması; ixracın kommersiya bankları ilə dövlət tərəfindən birgə kreditləşdirilməsi; milli ixracçıları kreditləşdirən banklara dövlət qarantlarının verilməsi; ölkə məhsullarını alan xarici firmalara dövlət tərəfindən, yaxud dövlət qarantı ilə kommersiya bankları tərəfindən kreditlərin təqdim edilməsi; ixracçıların kreditlərə görə kommersiya banklarına ödədikləri faizlərin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılması; ixracçılara milli nəqliyyat tarifləri ilə beynəlxalq nəqliyyat tarifləri arasındakı fərqin ödənilməsi; ixracın birbaşa dövlət tərəfindən sığortalanması; ixrac



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

kreditlərinin dövlət tərəfindən sığortalanması; ixracçı müəssisələrin idxal etdikləri əsas fondlardan tutulan gömrük rüsumlarının ləğvi; ixracçı firmaların əsas fondlara görə ödədikləri əmlak vergisinin ləğvi; ixracçı firmaların malların reklamlaşdırılmasına görə vergidən azad edilməsi; ixracçı firmaların qiymətli kağızlarından gələn gəlirə qoyulan verginin azaldılması və ya ləğvi; ixracçı müəssisələrdə əsas fondların amortizasiya müddətinin qısaldılması; ixrac artımından tutulacaq mənfəət vergisinin ləğv edilməsi; ixracçılara müəyyən əlavə imtiyazların verilməsi (məsələn, su, elektrik, qaz və s. tariflərdə bir qədər güzəştlər); dövlət tərəfindən ixracçılara informasiya, marketinq, konsultativ xidmətlərin göstərilməsi; ixracçı firmaların xarici bazarların tədqiqi üzrə marketinq proqramlarının dövlət tərəfindən maliyyə cəhətdən dəstəklənməsi [7].

İqtisadiyyatın əsasını xammal istehsalı və kənd təsərrüfatı təşkil edən ölkələrdə yoxsulluğun azalmasına yalnız ticarətdən qaynaqlanan iqtisadi inkişaf meyllər ilə nail olmaq kifayət qədər absurd görünür. Şaxələndirmə ümumiyyətlə iqtisadiyyatda müxtəliflik yaratmaqla bərabər böyümə və inkişaf meyllərinin həyata keçirilməsinə əlverişli şərait yaradır. İqtisadi şaxələndirmə nəticəsində yüksək məhsuldarlığın mövcud olduğu sahələrdə kapitalın təbii olaraq yenidən bölüşdürülməsi prosesi baş verir. Müasir şəraitdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinin əsas məqsədlərinə bu istiqamətləri şamil etmək olar: iqtisadiyyatda faliyyət göstərən müxtəlif mülkiyyət və təsərrüfat subyektlərinin öz fəaliyyətlərin genişləndirilməsi və yeni bazarlar əldə etməsi; bazar konyukturunda baş verən tərəddüdlərdən, eyni zamanda yalnız bir məhsulun istehsal və ixracından əldə edilən gəlirlərdən asılılığın aşağı salınması; dünya bazarlarına alternativ ixracının təmin edilməsi və bu aspektə daxili məşğulluğun və gəlirlərin həcminin artırılması; iqtisadiyyatın modernləşdirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi; iqtisadiyyat biznes, investisiya cəlbediciliyinə malik olan sahələrin inkişafının genişləndirilməsi; iqtisadiyyatda sahə və ərazi kəsimlərində istehsal bazar və sosial infrastrukturlarının inkişafının sürətləndirilməsi.



**Nəticə**

İqtisadiyyatın şaxələndirilməsi prosesi yalnız bir məhsul istehsalı və ticarətini əsaslanan birtərəfli istehsal prosesindən çoxçeşidli məhsul buraxılışını nəzərdə tutan geniş istiqamətli iqtisadi fəaliyyətə keçidi özündə əks etdirir. İqtisadiyyatın şaxələndirilməsinin mahiyyəti ondan ibarətdir ki, bazarın bir seqmentində müəssisə və firmaların üzləşdiyi zərər digər sahələrdə əldə edilən gəlirlərlə kompensasiyası edilsin. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsini qloballaşma şəraitində biznesin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirmək olar. İqtisadiyyatın şaxələndirilməsi prosesində müəssələrin və firmaların və bütövlükdə milli iqtisadiyyatın müflisləşmə riskləri nəzərəçarpacaq dərəcədə aşağı düşür və bu da iqtisadiyyatın investisiya cəlbediciliyinin yüksəldilməsinə, eləcə də ayrı-ayrı xarici investorların iqtisadiyyatın bu və ya digər sahələrinə vəsait qoyması maraqlarını artırır.

**Ədəbiyyat**


1. Брохкин, Е. и Толфик, М. Мировая формирования научно технического политика. Кишинёв 2005,876 s.
2. Ансофф, И. Стратегическое управления Москва, экономика,1989, 519 с,
3. Kennet, E. Concept contralate stratego homewood Universitety, 1971.
4. Worton, M. Diversification and integration in America industri, Preston universitety, 1962.
5. Lomakin, V.K. Dünya iqtisadiyyatı. Bakı 2015 (tərcümə edəni Rauf Şaiq olğu Hacıyev) 736 s.
6. Nağıyeva. V.Y. Aqrar sahənin ixrac potensialı: Təşkilatı idarəetmənin əsasları. Bakı 2016.
7. Quliyeva, A.E. Dünya bazarı və Azərbaycan iqtisadiyyatı dərs vəsaiti. Bakı 2021. 240 s.
8. Əhmədov, M.Ə. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı 2003. 523 s.
9. Nuriyev, Ə.X Azərbaycanda aiqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı 2013. 422 s.
10. Gənciyev, G.Ə Beynəlxalq iqtisadi münasibətlər. Bakı 2012. 396 s.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Анар Фазиль оглы Аббасов***

***Некоторые вопросы обеспечения диверсификации экономики в современных условиях***

***Резюме***

*Цель исследования: - изучить особенности диверсификации национальной экономики. Методология исследования - в работе использовались методы сравнительного анализа, группировки, обобщения и анализа. Значение применения исследования - производство большого количества продукции в стране в конечном итоге нейтрализует зависимость экономики и государственного бюджета от конъюнктуры международного рынка. В связи с этим важно принять меры по диверсификации экономики. По результатам исследования - поскольку диверсификация экономики важна для развития ненефтяного сектора для нашей страны, выдвинуты рекомендации в этой области. Оригинальность и научная новизна исследования - выявлены необходимость обеспечения диверсификации экономики, факторы, влияющие на процесс диверсификации, цели диверсификации и др.*

***Ключевые слова:*** *национальная экономика, экономическая диверсификация, международные рыночные условия, ненефтяной сектор.*

***Anar Fazil Abbasov***

***Some issues of ensuring the diversification of the economy in contemporary conditions***

***Summary***

*The purpose of the study: - is to study the specific features of the diversification of the national economy. Research methodology - comparative analysis, grouping, generalization and analysis methods were used throughout the research. Significance of the research - the production of a large number of products in the country ultimately neutralizes the dependence of the economy and the state budget on international market environment. In this regard, it is important to take measures to diversify the economy. The results of the study - as the diversification of the economy is important for the development of the non-oil sector for our country, some recommendations were suggested in this field. The originality and scientific novelty of the research - the need to ensure the diversification of the economy, the factors influencing the process of diversification, the goals of diversification, etc. were identified.*
***Keywords:****national economy, economic diversification, international market environment, non-oil sector.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 25.04.2022.***
***Çapa qəbul olunub: 02.05.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*